Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi
Şirvan Gömrük İdarəsində yaradılmış "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şura"nın iclasının

**PROTOKOLU № 05**

27 sentyabr 2017-ci il — Şirvan şəhəri

**İştirak etdilər:**
Tofiq Bayramov - İdarənin rəis müavini;
Faiq Qurbanov - Ümumi şöbənin inspektoru;
Fərahim Şeyxəliyev - Maliyyə-tarif şöbəsinin rəisi;
Əfqan Quliyev - Yük şöbəsinin rəisi;
Elşad Hacıyev - "MKT İK" MMC-nin nümayəndəsi;
Vurğun Babaşov - "Hacıqabul Quşçuluq" MMC-nin nümayəndəsi;
Elvin Baxşəliyev - "Gilan Seramik" MMC-nin nümayəndəsi.

İclasın sədri: Tofiq Bayramov
İclasın katibi: Faiq Qurbanov

**İclasın gündəliyi :**

1. Elektron bəyannamələrin tətbiqi ilə əlaqədar olaraq qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün birgə müzakirələrin aparılması, nəqliyyat vasitələrinin təyinat orqanına çatması ilə əlaqədar çatmanın təsdiqi ilə bağlı problemlərin araşdırılması.

2. İclasın sədri – Tofiq Bayramov: Bu gün müzakirə etdiyimiz məsələ, "Açıq hökümətin təşviqinə dair 2016-2017-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 nömrəli sərəncamının 4.2.1-ci bəndinin və Dövlət Gömrük Komitəsinin 2016-cı il 21 noyabr tarixli 100/197 nömrəli "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" sərəncamının icrası ilə bağlı "Elektron bəyannamələrin tətbiqi ilə əlaqədar olaraq qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün birgə müzakirələrin aparılması, nəqliyyat vasitələrinin təyinat orqanına çatması ilə əlaqədaq çatmanın təsdiqi ilə bağlı problemlərin araşdırılması. Həmin məsələ ilə əlaqədar olaraq İctimai Şura üzvləri çıxış edərək öz təkliflərini versinlər.

**Çıxış etdilər:**
Fərahim Şeyxəliyev qeyd etdi ki, elektron bəyannamələrin tətbiqi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən təsdiq edilmiş malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu üzrə inzibati reqlamentə uygun olaraq aparılır.

Elektron xidmətin məzmunu Azərbaycan Respublikası gömrük sərhədindən keçirilən mallar üçün bəyannamələrin elektron formada tərtib edilərək gömrük orqanlarına təqdim edilməsindən ibarətdir. Bəyannamədə və ona əlavə edilmiş sənədlərdə olan məlumatlar interaktiv qaydada yoxlanılır və nəticəsi barədə istifadəçiyə məlumat verilir.

Elektron xidmətdən istifadə nəticəsində şəxslər ixrac və idxal etdikləri, habelə tranzit daşınan malların gömrük rəsmiləşdirilməsini həyata keçirirlər və onlara rəsmiləşdirilmənin nəticəsi barədə məlumat verilir. İstifadəçi gömrük orqanının vəzifəli şəxsinin elektron imzası ilə təsdiq edilmiş elektron bəyannamənin istənilən təşkilata, o cümlədən müvəkkil banklarada təqdim edə bilərlər.

Elektron xidmət ödənişlidir. Gömrük bəyannamələrinin hər vərəqi üçün elektron gömrük xidmətinin göstərilməsinə görə 30 manat məbləğində gömrük yığımı alınır.

Malların və nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altında tam yerləşdirilməsini nəzərdə tutan bütün növ gömrük bəyannamələrinin hər vərəqi üçün elektron gömrük xidmətinin göstərilməsinə görə məbləğ gömrük bəyannaməsinin qəbulundan imtina edilmədikdə ödənilir.

Sorğunun formalaşdırılması şəxslərin elektron xidmətin təqdim edildiyi internet ünvanına daxil olaraq bəyannamənin doldurulması və tələb olunan sənədlərin elektron və ya skan edilmiş surətlərini gücləndirilmış elektron imza ilə təsdiq etməklə real vaxt rejimində gömrük orqanlarına təqdim edilməsidir. İnzibati əməliyyatlar bir iş günü müddətində həyata keçirilir. Şəxslər tərəfindən məbləğin ödənilməsini təsdiq edən sənəd elektron qaydada təqdim edildikdən sonra müvafiq bəyannamə təsdiq edilir, malların buraxılması və ya qanunvericiliklə müəyyən olunmuş digər əməliyyatların həyata keçirilməsi haqqında qərar qəbul edilir və bu barədə bəyannaməçiyə bildiriş göndərilir.

F.Şeyxəliyev elektron bəyannamələrin tətbiqində çətinliklərin yalnız bəzi hallarda internetlə bağlı olduğunu qeyd etdi.

Yük şöbəsinin rəisi Əfqan Quliyev nəqliyyat vasitələrinin təyinat orqanına çatması ilə əlaqədar çatmanın təsdiqi ilə bağlı çıxış etdi. Çıxışçı nəqliyyat vasitələrinin təyinat orqanına çatması ilə əlaqədar çatmanın təsdiqi ilə bağlı problemlərin Şirvan Gömrük İdarəsində olmadığını qeyd etdi. Belə ki, idarədə 24 saatlıq növbətçilik xidməti mövcuddur. Gömrük idarəsinə təqdim olunan sənədlər əsasında növbətçi tərəfindən nəqliyyat vasitələrinin çatması barədə müvafiq qeydiyyat aparılır.

**QƏRARA ALINDI:**

3. "Elektron bəyannamələrin tətbiqi ilə əlaqədar olaraq qarşıya çıxan cətinliklərin aradan qaldırılması üçün birgə müzakirələrin aparılması, nəqliyyat vasitələrinin təyinat orqanına çatması ilə əlaqədar çatmanın təsdiqi ilə bağlı problemlərin araşdırılmasına daha da ciddi yanaşilsin

Sədr: Tofiq Bayramov

Katib: Faiq Qurbanov